# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 398** **Bakı şəhəri, 17 sentyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə təsdiq edilmiş "Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların reyestrinin aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

"Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 884; 2017, № 12 (II kitab), maddə 2529; 2018, № 6, maddə 1363) ilə təsdiq edilmiş 3 nömrəli əlavə – "Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların reyestrinin aparılması Qaydası"na aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. Akkreditasiya orqanı akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən orqanlar üzrə informasiya ehtiyatının "Lisenziyalar və icazələr" portalına inteqrasiyasını təmin edir.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***